**“Yeyinti məhsullarının *minimum* keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi *ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə* əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli Fərmanının 2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Yeyinti məhsullarının *minimum* keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi *ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə* əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları” təsdiq edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 16 avqust 2005-ci il
№ 154

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2005-ci 16 avqust tarixli 154 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Yeyinti məhsullarının *minimum* keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi *ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə* əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi**

**Q A Y D A L A R I**[2]

## I. ÜMUMİ MÜDDƏALAR

1. Bu Qaydalar “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli Fərmanına və qüvvədə olan digər qanunvericilik aktlarına əsasən hazırlanmışdır və yeyinti məhsullarının *minimum* keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi *ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə* əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi qaydalarını müəyyən edir.

## II. DÖVLƏT NƏZARƏTİNİN MƏQSƏDİ

2. Dövlət nəzarətinin məqsədi istehlakçıların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, insanların həyatı, sağlamlığı, dövlətin əmlak maraqları, habelə ətraf mühit üçün birbaşa və mühüm təhlükə törədə və ya mühüm zərər vura biləcək yeyinti məhsullarının istehsalının, idxalının və satışının qarşısının alınması, bu sahədə respublikada keyfiyyətli məhsul istehsalına və idxalına şərait yaradılmasıdır.[3]

3. Yeyinti məhsullarının istehsalı, tədarükü, qablaşdırılması, saxlanması, daşınması, alış-satış və idxal-ixrac əməliyyatları yeyinti məhsulları sahəsində fəaliyyət hesab edilir.

*4. Yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən dövlət nəzarəti orqanı (Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi) qida (yeyinti) məhsulları sahəsində fəaliyyət göstərən subyektlər tərəfindən məhsulların minimum keyfiyyət və təhlükəsizliyinə dair tələblərə, onların istehsal, daşınma, saxlanma, qablaşdırma, etiketləşdirmə və satış şərtlərini müəyyən edən ekoloji, sanitariya, baytarlıq və fitosanitar norma, qayda və tələblərinə (bundan sonra - qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara) riayət edilməsinə nəzarəti həyata keçirirlər.*

*Yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara əməl olunmasına dövlət nəzarəti funksiyalarının həyata keçirilməsində digər orqanların iştirakına yol verilmir.*[4]

~~5. Yeyinti məhsullarının istehsalı, ticarəti, tədarükü, saxlanması, respublika ərazisində istehlak üçün idxalı (sərbəst dövriyyə üçün buraxılış), ixracı və daşınması zamanı məhsulun keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi üçün standartlara və aşağıdakı tələblərə riayət edilməsinə nəzarət edilir:~~[5]

~~5.1. yeyinti məhsullarının insanın həyatı, sağlamlığı, dövlətin əmlak maraqları və ətraf mühitin təhlükəsizliyinin qorunmasını təmin edəcək tələblərə:~~[6]

~~- yeyinti məhsullarının standart və tələblərə uyğunluğunun müəyyən edilməsi müvafiq formada sənədləşdirilmiş ekspertiza, müayinə və sınaq nəticələrinə əsaslanır. Yeyinti məhsullarının tərkibi kimyəvi, bioloji, toksikoloji və radioloji göstəricilərinə görə dövlət nəzarəti aparan səlahiyyətli şəxs tərəfindən təsərrüfat subyektinin nümayəndələrinin iştirakı ilə seçilmiş nümunələrin ekspertizası (sınaqları, müayinəsi) akkreditasiya olunmuş müvafiq laboratoriyalarda (mərkəzlərdə) aparılır. Ekspertizanın (müayinə və sınaqların) nəticələri nümunələrin seçildiyi məhsulun partiyasına şamil edilir və ekspertizanı (müayinə və sınağı) aparmış məsul şəxslərin imzaları ilə müvafiq sənədlərlə rəsmiləşdirilir;~~

~~5.2. yeyinti məhsullarının qablaşdırılmasına, etiketləşdirilməsinə, daşınmasına və saxlanmasına olan normativ sənədlərin tələblərinə:~~ [7]

~~- istehsal edilən, habelə ixrac edilən yeyinti məhsullarının üzərindəki etiketlər və digər yazılar müvafiq xarici dillərlə yanaşı, dövlət dilində də olmalıdır;~~

~~- Azərbaycan Respublikasında istehlak üçün idxal (sərbəst dövriyyə üçün buraxılış) edilən yeyinti məhsullarının üzərindəki etiketlər və adlar, onlardan istifadə qaydaları barədə izahat vərəqələri başqa dillərlə yanaşı, Azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır;~~

~~- qanunvericilikdə digər hal nəzərdə tutulmamışdırsa, yeyinti məhsullarının etiketinin üzərində məhsulun adı, həcmi, növü və tərkibi, istifadə sahəsi və qaydaları, istehsal tarixi və yararlıq müddəti, saxlanma şərtləri, istehsalçının adı, ünvanı, əmtəə nişanı və normativ sənədlərdə tələb olunan digər məlumatlar olmalıdır;~~

- yeyinti məhsullarının qablaşdırılmasında və bükülməsində istifadə olunan köməkçi materialların istifadəsinə yalnız uyğunluq və gigiyenik sertifikatı olduqda icazə verilir;

- yeyinti məhsullarının saxlanması və daşınması zamanı normativ sənədlərin tələblərinin pozulması nəticəsində baş verə biləcək hər hansı bir tərkib dəyişmələrinə və çirklənmələrə yol verilməməlidir;

5.3. müvafiq norma və qaydalara istinad edilməklə təhlükəsizlik texnikası və əmək gigiyenası tələblərinə;

5.4. ölçmələrin vəhdətini və dəqiqliyini təmin edən metroloji qayda və normaların tələblərinə;

5.5. səlahiyyətli orqan tərəfindən verilmiş və ya tanınmış qüvvədə olan sertifikat və şəhadətnamələrin mövcudluğuna;

5.6. uyğunluq nişanının, "müalicəvi", "pəhriz", adlarının qanunvericiliyə uyğun tətbiqinə;

5.7. sertifikat və şəhadətnamə verilmiş məhsulun normativ sənədlərinə və ya istehsalın texnoloji proseslərinə edilmiş dəyişikliklər barədə sertifikat və şəhadətnamə verən səlahiyyətli orqana vaxtlı-vaxtında məlumatın verilməsinə;

5.8. yeyinti məhsullarını istehsal edən obyektlərdə istehsalçının zəruri olan normativ sənədlərlə təminatına:

- müvafiq səlahiyyətli dövlət orqanında qeydiyyatdan keçməmiş normativ sənədlə yeyinti məhsulunun istehsalına icazə verilmir;

- beynəlxalq, regional və xarici ölkələrin milli standartları əsasında yeyinti məhsullarının istehsalına, məhsulun keyfiyyətinə olan tələblərə cavab verdikdə və standartlaşdırma və sertifikatlaşdırma sahəsində milli orqanda (Azərbaycan Respublikasının *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi*) qeydiyyatdan keçirildikdən sonra icazə verilir;[8]

5.9. istehsal edilən məhsulların sınaqlarının dövri olaraq müvafiq səlahiyyətli orqan tərəfindən akkreditasiya olunmuş laboratoriyalarda (mərkəzlərdə) aparılmasına;

5.10. yeyinti məhsullarını istehsal edən obyektlərdə istehsal texnologiyası prosesləri sahəsində ixtisaslı mütəxəssislərin olmasına.

6. Azərbaycan Respublikasında istehlak üçün idxal (sərbəst dövriyyə üçün buraxılış) edilmiş məhsulların standartlara və tələblərə uyğunluğu araşdırılarkən aşağıdakılar tələb edilir:

- istehsalçı ölkənin müvafiq orqanları tərəfindən verilmiş məhsulun mənşəyini, keyfiyyətini və təhlükəsizliyini xarakterizə edən sertifikatların rəsmi tərcüməsi və məhsulun respublikaya daxil edilməsi üçün kontraktın (müqavilənin) surəti;

- Azərbaycan Respublikasında istehlak üçün idxal (sərbəst dövriyyə üçün buraxılış) olunmuş və ixrac edilən yeyinti məhsullarının keyfiyyət və təhlükəsizlik tələblərinə uyğun olmaması barədə əlamətlər müəyyən edildikdə məhsullardan seçilmiş nümunələrin sınaqları ("müayinəsi") aparılır;

- istehsalçı ölkənin müvafiq orqanları tərəfindən yeyinti məhsullarına verilmiş uyğunluq sertifikatı dövlətlərarası müqavilələrə uyğun olaraq tanınmadan keçməli, belə müqavilələr olmadığı təqdirdə, məhsulların Azərbaycan Respublikasında qüvvədə olan normativ sənədlərə uyğunluğunu təsdiq edən sertifikat alınmalıdır.

## III. DÖVLƏT NƏZARƏTİNİN APARILMASI QAYDALARI

7. Dövlət nəzarətinin təşkili və keçirilmə formaları "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununa, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa və qüvvədə olan qanunvericilik aktlarına uyğun həyata keçirilir.[9]

8. *Yeyinti məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini öz səlahiyyətləri çərçivəsində, qüvvədə olan qanunvericiliyə uyğun olaraq, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin müfəttiş və mütəxəssisləri həyata keçirirlər.*[10]

Yeyinti məhsullarının *minimum* keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarəti həmin məhsulların Azərbaycan Respublikasında istehlak üçün idxalı (sərbəst dövriyyə üçün buraxılış), istehsalı, ticarəti, tədarükü, saxlanması, ixracı və daşınması mərhələlərində keçirilir.

~~9. Dövlət nəzarət orqanları tərəfindən hər il aparılması planlaşdırılan yoxlamalar yeyinti məhsulları sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərində "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 sentyabr tarixli Fərmanının 6-cı bəndinə uyğun aparılır. Yoxlamalar istehlakçıların müraciət və şikayətləri əsasında və yoxlamanın nəticəsi üzrə hüquqi və fiziki şəxslər barəsində görülən tədbirlərin icrasını yoxlamaq məqsədilə təkrar aparıla bilər. Yoxlamalar əsasən seçmə üsulu ilə həyata keçirilir.~~[11]

10. Dövlət nəzarətini həyata keçirən orqanın səlahiyyətli şəxsi aşağıdakı hüquqlara malikdir:

- zəruri hallarda təsərrüfat subyektlərinin rəhbərliyini məlumatlandırmaqla istehsal, saxlanma və satış sahələrinə sərbəst daxil olmaq;
- onlardan zəruri məlumat və sənədləri almaq;
- təsərrüfat subyektlərinin mütəxəssislərindən və maddi-texniki vasitələrindən əvəzsiz istifadə etmək;
- normativ sənədlərə müvafiq olaraq məhsulun *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara* uyğunluğunu təyin etmək məqsədilə sınaq nümunələri seçib götürmək;[12]
- normativ sənədlərin və qanunvericilik aktlarının tələblərinin pozulduğu aşkar edildikdə, iradnamə və tələbnamələr verilməsi, inzibati sanksiyalar tətbiq edilməsi üçün sertifikat və şəhadətnamələrin ləğv edilməsi barədə qərar qəbul edilməsi üçün vəsatət qaldırmaq.[13]

Təsərrüfat subyektlərinin rəhbərləri dövlət nəzarətini həyata keçirmək üçün şərait yaratmalıdırlar.

11. Dövlət nəzarətinin nəticələri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq rəsmiləşdirilir. Dövlət nəzarət aktı, arayış və inzibati protokol, qüvvədə olan qanunvericiliyə uyğun olaraq müvafiq iradnamələr, tələbnamələr və göstərişlər inzibati qərarların qəbul edilməsi üçün əsas olan hüquqi sənədlərdir.[14]

## IV. TƏTBİQ OLUNAN HÜQUQİ TƏDBİRLƏR

12. Aşkar olunmuş pozuntuların təyin olunmuş müddətdə aradan qaldırılması məqsədilə dövlət nəzarətini həyata keçirən orqan, təsərrüfat subyektinin rəhbərinə xəbərdarlıq və ya iradnamə, *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara* uyğun olmayan məhsul partiyasının istifadəsinin və realizə edilməsinin qadağan olunması və dövriyyədən (satışdan) çıxarılması barədə isə göstəriş, inzibati qərar və ya tələbnamə vermək hüququna malikdir.[15]

13. Yoxlamanın nəticələri üzrə verilən iradnamələrin, tələbnamələrin, qərar və göstərişlərin icrası *qida (yeyinti) məhsulları sahəsində fəaliyyət göstərən subyektlər* üçün məcburidir.[16]

14. Aşağıdakı hallarda yeyinti məhsullarının Azərbaycan Respublikasında istehlak üçün idxalının (sərbəst dövriyyə üçün buraxılış), istehsalının, ixracının və satışının qadağan edilməsi barədə göstəriş və tələbnamə verilir:

14.1. yoxlanılan məhsullar *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara* uyğun gəlmədikdə və ya məhsulun müvafiq keyfiyyətdə sabit istehsalına şərait olmadıqda;

~~14.2. normativ sənədsiz, yaxud qüvvədə olma müddəti bitmiş normativ sənədlə və ya müəyyən olunmuş qaydada tanınmamış sənədlə məhsul hazırlandıqda;~~[17]

14.3. yeyinti məhsulları gizlədildikdə;

14.4. *istehsalçı qida təhlükəsizliyi qeydiyyatından keçmədikdə, məhsulların qida təhlükəsizliyi sertifikatı olmadıqda,* "müalicəvi", "pəhriz", ~~"ekoloji təmiz"~~ adlarından, AZS Milli Uyğunluq Nişanından qeyri-qanuni istifadə edildikdə;[18]

14.5. saxta və başqasının əmtəə nişanı ilə icazəsiz məhsullar istehsal və realizə edildikdə;

14.6. buraxılması və ya satılması qadağan olunmuş mallar satıldıqda;

14.7. məhsulların saxlanması və ya satışı zamanı mal qonşuluğu qaydaları pozulduqda;

~~14.8. sertifikat və şəhadətnamə alınmadan yeyinti məhsulları istehsal olunduqda və satıldıqda;~~

14.9. yeyinti məhsullarının ticarət qaydaları pozulduqda;

14.10. qeyri-qanuni şəraitdə istehsal edilmiş yeyinti məhsulları satıldıqda.

~~15. Sertifikat və şəhadətnamə almış yeyinti məhsullarının normativ sənədlərin tələblərinə cavab vermədiyi aşkar edildikdə, sertifikat və şəhadətnamələrin fəaliyyəti dayandırılır.~~

16. Yeyinti məhsullarının *minimum* keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi *ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə* əməl olunmasına dövlət nəzarəti aparılarkən inzibati sanksiyaların tətbiq edilməsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq tənzimlənir.

17. Yeyinti məhsulları sahəsində fəaliyyət göstərən bütün sifarişçi və icraçılar bağladıqları müqavilələrə, habelə büdcədən maliyyələşən təşkilatlar yeyinti məhsullarının satın alınması üzrə keçirilən tenderin şərtlər toplusuna məhsulların *qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara* uyğunluğunu təsdiq edən sertifikat və şəhadətnamələrin olması barədə müvafiq şərtlər daxil etməlidirlər.

*18. Qida (yeyinti) məhsulları sahəsində fəaliyyət göstərən subyektlər yeyinti məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən dövlət orqanı tərəfindən bu Qaydalara uyğun verilmiş qərar və tələbləri icra etmədikdə, mövcud qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.*

*Yeyinti məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən dövlət orqanının vəzifəli şəxsləri hərəkətlərinə, dövlət nəzarətini həyata keçirən orqan isə qəbul etdiyi qərarlara görə mövcud qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.*

*Yeyinti məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən dövlət orqanının qəbul etdiyi qərarlardan və vəzifəli şəxslərin hərəkətlərindən inzibati qaydada və ya məhkəməyə şikayət edilə bilər.*[19]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 22 may 2006-cı il tarixli 129 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 472**)
2. 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 32)**
3. 30 mart 2009-cu il tarixli **48** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №03, maddə 205)**
4. 14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 20 fevral 2014-cü il, № 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, №02, maddə 201**)
5. 16 iyul 2014-cü il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 27 iyul 2014-cü il, № 160; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 931)**
6. 13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 20 may 2016-cı il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 955**)
7. 5 fevral 2018-ci il tarixli **34** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 7 fevral 2018-ci il, № 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 2, maddə 338)**
8. 30 avqust 2018-ci il tarixli **367** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 2 sentyabr 2018-ci il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1817**)
9. 16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 noyabr 2018-ci il, № 261)**

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə qərarın adında və 1-ci hissəsində "**məhsullarının**" sözündən sonra "**minimum**" sözü əlavə edilmişdir və "**sahəsində standartlara və tələblərə**" sözləri "**ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə**" sözləri ilə əvəz edilmişdir.

[2] 16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın adına, 1-ci və 16-cı hissələrinə, 8-ci hissəsinin ikinci abzasına "**məhsullarının**" sözündən sonra "**minimum**" sözü əlavə edilmişdir və "**sahəsində standartlara və tələblərə**" sözləri "**ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə**" sözləri ilə əvəz edilmişdir.

[3] 16 iyul 2014-cü il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 27 iyul 2014-cü il, № 160; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 931)** ilə 2-ci hissədə "**əmlakı və ətraf mühit üçün təhlükə törədə**" sözləri

“**dövlətin əmlak maraqları, habelə ətraf mühit üçün birbaşa və mühüm təhlükə törədə və ya mühüm zərər vura**” sözləri ilə əvəz edilmişdir.

[4] 30 mart 2009-cu il tarixli **48** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №03, maddə 205)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 5.2-ci bəndinin dördüncü abzasında "**yeyinti**" sözünün əvvəlinə "**qanunvericilikdə digər hal nəzərdə tutulmamışdırsa,**" sözləri əlavə edilmişdir, 5.6-cı və 14.4-cü bəndlərindən "**, "ekoloji təmiz"** " sözləri çıxarılmışdır.

14 fevral 2014-cü il tarixli **46** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 20 fevral 2014-cü il, № 37, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, №02, maddə 201**) ilə“Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın 4-cü və 8-ci hissələrində “**İqtisadi İnkişaf**” sözləri “**İqtisadiyyat və Sənaye**” sözləri ilə əvəz edilmişdir.

13 may 2016-cı il tarixli **195** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 20 may 2016-cı il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, № 5, maddə 955**) ilə “Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın 4-cü və 8-ci hissələrindən “**və Sənaye**” sözləri çıxarılmışdır.

16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə “Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın 4-cü hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4. Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətini həyata keçirən dövlət nəzarəti orqanları (öz səlahiyyətləri daxilində *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi*) yeyinti məhsulları sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər tərəfindən məhsulların keyfiyyət və təhlükəsizliyinə dair tələblərə, onların istehsal, daşınma, saxlanma, qablaşdırma, etiketləşdirmə və satış şərtlərini müəyyən edən texniki, ekoloji, sanitariya, baytarlıq-sanitariya və fitosanitar standartlara, norma, qayda və tələblərinə (bundan sonra - standartlara və tələblərə) riayət edilməsinə nəzarəti həyata keçirirlər.~~

~~Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarəti funksiyalarının həyata keçirilməsində digər orqanların iştirakına yol verilmir.~~

[5] 16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Xalq” qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə “Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın 5-ci hissəsi ləğv edilmişdir.

[6] 16 iyul 2014-cü il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(“Azərbaycan” qəzeti, 27 iyul 2014-cü il, № 160; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 931)** ilə 5.1-ci bəndin birinci abzasında “**əmlakı**” sözü “**dövlətin əmlak maraqları**” sözləri ilə əvəz edilmişdir və ikinci abzasının ikinci cümləsindən “**təsərrüfat subyektinin vəsaiti hesabına**” sözləri çıxarılmışdır.

[7] 30 mart 2009-cu il tarixli **48** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №03, maddə 205)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 5.2-ci bəndinin dördüncü abzasında "**yeyinti**" sözünün əvvəlinə "**qanunvericilikdə digər hal nəzərdə tutulmamışdırsa,**" sözləri əlavə edilmişdir, 5.6-cı və 14.4-cü bəndlərindən "**, "ekoloji təmiz**" " sözləri çıxarılmışdır.

[8] 30 avqust 2018-ci il tarixli **367** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 2 sentyabr 2018-ci il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №8, maddə 1817**) ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 5.8-ci bəndinin üçüncü abzasında "**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi**" sözləri "**Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi"** sözləri ilə əvəz edilmişdir.

[9] 16 iyul 2014-cü il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 27 iyul 2014-cü il, № 160; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 931)** ilə 7-ci hissəyə "**Qanununa**" sözündən sonra "**, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa**" sözləri əlavə edilmişdir.

[10] 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 32)** ilə təsdiq edilmiş "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 4-cü və 5.8-ci bəndlərində "**Agentliyi**" sözü "**Komitəsi**" sözü ilə, 8-ci bəndində isə "**Agentliyinin**" sözü "**Komitəsinin**" sözü ilə əvəz edilmişdir.

5 fevral 2018-ci il tarixli **34** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 7 fevral 2018-ci il, № 28, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 2, maddə 338)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 4-cü və 8-ci hissələrində ismin müvafiq hallarında verilən "**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi**" sözləri ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.

16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 8-ci hissəsinin birinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini öz səlahiyyətləri çərçivəsində, qüvvədə olan qanunvericiliyə uyğun olaraq, *Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin* müfəttiş və mütəxəssisləri həyata keçirirlər.~~

[11] 16 iyul 2014-cü il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 27 iyul 2014-cü il, № 160; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 931)**ilə 9-cu hissə ləğv edilmişdir.

[12] 16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 10-cu hissəninin beşinci abzasında, 12-ci, 16-cı, 17-ci hissələrdə, 14.1-ci bənddə "**standartlara və tələblərə**" sözləri "**qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktlara**" sözləri ilə əvəz edilmişdir.

[13] 16 iyul 2014-cü il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 27 iyul 2014-cü il, № 160; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 931)**ilə 10-cu hissənin altıncı abzasında "**vermək**" sözü "**verilməsi**" sözü ilə əvəz edilmişdir.

[14] 16 iyul 2014-cü il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 27 iyul 2014-cü il, № 160; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 931)**ilə 11-ci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~11. Dövlət nəzarətinin nəticələri akt ilə (arayış və ya inzibati protokolla) rəsmiləşdirilir. Aktda müvafiq dövlət nəzarəti orqanı əməkdaşının soyadı, adı, atasının adı göstərilir və bu barədə nəzarət kitabçasında qeyd olunur. Araşdırma aktının bir nüsxəsi təsərrüfat subyektinin rəhbərinə təqdim edilir. Təsərrüfat subyektinin rəhbərinin aktı imzalayarkən öz rəyini əlavə etmək hüququ var.~~

~~Aktda aşağıdakı məlumatlar verilir:~~

~~- hüquqi və fiziki şəxslər haqqında məlumatlar (müəssisənin ünvanı, müəssisə rəhbərinin soyadı, adı və atasının adı), nəzarəti aparan səlahiyyətli şəxslər haqqında məlumat (vəzifəsi, soyadı, adı, atasının adı);~~

~~- nəzarətin aparılmasının səbəbləri və müddəti;~~

~~- araşdırma haqqında məlumatlar, sınaq üçün götürülən nümunələr və məhsulun partiyası haqqında məlumatlar və sınaq protokolu;~~

~~- araşdırmanın nəticələri.~~

~~Dövlət nəzarət aktı, arayış və inzibati protokol, qüvvədə olan qanunvericiliyə uyğun olaraq müvafiq iradnamələr, tələbnamələr və göstərişlər inzibati qərarların qəbul edilməsi üçün əsas olan hüquqi sənəddir.~~

[15] 16 iyul 2014-cü il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 27 iyul 2014-cü il, № 160; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 931)**ilə 12-ci hissədə "**vəzifəli şəxs**" sözləri "**orqan**" sözü ilə əvəz edilmişdir.

[16] 16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 13-cü hissəsində "**hüquqi və fiziki şəxslər**" sözləri "**qida (yeyinti) məhsulları sahəsində fəaliyyət göstərən subyektlər**" sözləri ilə əvəz edilmişdir.

[17] 16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 14.2-ci, 14.8-ci bəndləri və 15-ci hissəsi ləğv edilmişdir.

[18] 16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi

Qaydaları"nın 14.4-cü bəndində "**istehsalçı (idxalçı, ixracatçı, satıcı) tərəfindən məhsulların sertifikatlaşdırma qaydaları pozulduqda**" sözləri "**istehsalçı qida təhlükəsizliyi qeydiyyatından keçmədikdə, məhsulların qida təhlükəsizliyi sertifikatı olmadıqda**" sözləri ilə əvəz edilmişdir.

[19] 22 may 2006-cı il tarixli **129** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 5, maddə 472**) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 avqust tarixli 154 nömrəli qərarı ilə təsdiq edilmiş "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 18-ci bəndinin üçüncü abzasında "**müəyyən olunmuş qaydada**" sözləri "**inzibati qaydada və ya**" sözləri ilə əvəz edilmişdir.

16 iyul 2014-cü il tarixli **243** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 27 iyul 2014-cü il, № 160; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, № 07, maddə 931)** ilə 18-ci hissənin birinci abzasında "**orqanlarının vəzifəli şəxsləri**" sözləri "**orqanları**" sözü ilə və ikinci abzasında "**və**" sözü (ikinci halda) "**, dövlət nəzarətini həyata keçirən orqanlar**" sözləri ilə əvəz edilmişdir.

16 noyabr 2018-ci il tarixli **488** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 20 noyabr 2018-ci il, № 261)** ilə "Yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində standartlara və tələblərə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın 18-ci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~18. Yeyinti məhsulları sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən dövlət orqanları tərəfindən bu "Qaydalar"a uyğun verilmiş Qərar və tələbləri icra etmədikdə, mövcud qanunvericiliyə müvafiq məsuliyyət daşıyırlar.~~

~~Yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən dövlət orqanlarının vəzifəli şəxsləri hərəkətlərinə, dövlət nəzarətini həyata keçirən orqanlar qəbul etdikləri qərarlara görə mövcud qanunvericiliyə müvafiq məsuliyyət daşıyırlar.~~

~~Yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətini həyata keçirən dövlət orqanlarının qəbul etdiyi qərarlardan və vəzifəli şəxslərin hərəkətlərindən inzibati qaydada və ya məhkəməyə şikayət edilə bilər.~~